*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   10 avqust 2016-cı il   № 61 (2076)   Qiymәti 25 qəpik


# Bakıda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşü keçirilib

***Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib. Dövlət başçıları görüşdə çıxış ediblər.***




## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli prezidentlər.

Hörmətli qonaqlar.

Hörmətli zirvə görüşü iştirakçıları.

İlk növbədə, bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Bu gün Bakıda tarixdə ilk dəfə olaraq İran, Rusiya, Azərbaycan prezidentlərinin üçtərəfli görüşü keçirilir. Bu, tarixi hadisədir. Bu gün üç ölkə arasında yeni əməkdaşlıq formatı yaranır. Mənim dəvətimi qəbul edərək zirvə görüşünün işində iştiraka görə Prezident Putinə və Prezident Ruhaniyə minnətdaram.

Qeyd etməliyəm ki, bu ilin aprel ayında Azərbaycanın təşəbbüsü ilə Bakıda üç ölkənin xarici işlər nazirləri görüşmüşlər. Əminəm ki, bugünkü zirvə görüşü regional əməkdaşlığa yeni təkan verəcəkdir.

Əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf etmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir.

Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olmuşdur və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirmişdir. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir.

İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan etmişdir.

Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. BMT, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyirlər. Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün ilk növbədə Azərbaycanın əraziləri işğaldan azad edilməlidir.

Uzun illərdir ki, Azərbaycanın ərazi bütövlüyü pozulub, torpağımızın 20 faizi işğal altındadır. Bu işğaldan bir milyondan artıq azərbaycanlı əziyyət çəkir. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr 20 ildən artıqdır ki, icra edilmir.

Son vaxtlar yaşadığımız regionda risklər və təhdidlər artır. Biz beynəlxalq terrorizmə qarşı səylərimizi daha da birləşdirməliyik. Əslində bütün dünya səylərini birləşdirməlidir. Biz ancaq bu halda beynəlxalq terrorizmə qalib gələ bilərik. Azərbaycanın terrorizmə qarşı mübarizədə prinsipial mövqeyi dəyişməzdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliklə bağlı mühüm məsələləri müzakirəyə çıxarmış, beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi təşəbbüsünü irəli sürmüşdür.

2012-ci ilin may ayında Təhlükəsizlik Şurasında Azərbaycanın sədrliyi ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda keçirilmiş yüksək səviyyəli iclası xüsusi qeyd etmək istərdim. İclasın yekununda bəyanat qəbul olunmuş, terrorun bütün formaları və təzahürləri bir daha pislənmişdir.

Hörmətli həmkarlar. Bizi birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi sülh və əməkdaşlıq dənizi dir və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir. Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda İran və Rusiya şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edir, böyük sərmayə qoyur. Öz növbəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır.

Üçtərəfli format iqtisadi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar yaradacaqdır. Rusiya və İran bizim əsas ticarət tərəfdaşlarımızdandır. Əminəm ki, üçtərəfli format ölkələrimizin biznes strukturları üçün də faydalı olacaq. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, qarşılıqlı ixrac imkanlarının genişləndirilməsi iqtisadi əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. Maliyyə, bank, sığorta sektorunda əməkdaşlığın yaxşı perspektivləri vardır. Ölkələrimizin geniş maliyyə imkanlarını nəzərə alaraq biz başqa ölkələrdə müştərək investisiya layihələrində iştirak edə bilərik.

Azərbaycanda sərmayə qoyuluşu üçün münbit şərait yaradılmışdır. Son 20 ildə Azərbaycana 200 milyard dollar investisiya yatırılıb. Bunun yarısı xarici sərmayədir. Kənd təsərrüfatı, turizm, telekommunikasiya sahələri sərmayə qoyuluşu üçün böyük potensiala malikdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabət qabiliyyətliliyi indeksində Azərbaycan 40-cı yerə layiq görülüb.

Elektroenergetika sektorunda əməkdaşlıq uğurla aparılır. Azərbaycan həm İran, həm də Rusiya ilə öz enerji xətlərini birləşdirib. Hər iki ölkə ilə enerji mübadiləsinin həcmi ildən-ilə artır. Rusiya ilə mövcud olan sazişə əsasən, Azərbaycanın enerji sistemi Rusiyanın Vahid Enerji Sistemi ilə paralel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini "Xaçmaz-Dərbənd" və "Yalama" elektrik veriliş xətləri birləşdirir. İran ilə də hazırda "Parsabad", "Astara-Astara", "Araz" və "Culfa" elektrik veriliş xətləri ilə enerji mübadiləsi həyata keçirilir. Bir neçə gün əvvəl İmişli və Parsabad arasında elektrik xətti də birləşdirildi. Masallı və Astara şəhərləri arasında isə elektrik xətti yaxın gələcəkdə tam istismara veriləcəkdir.

Artıq Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. İxrac potensialımız artır. Əminəm ki, birgə səylərlə biz etibarlı enerji dəhlizinin formalaşmasına nail ola bilərik. Bu dəhliz üç ölkə arasında enerji mübadiləsini və yeni bazarlara çıxışı təmin edə bilər.

Şadam ki, sərhəd mühafizəsi işində etibarlı əməkdaşlıq mövcuddur. Azərbaycan tərəfinin təşəbbüsü ilə bu il İran, Rusiya, Azərbaycan sərhəd xidmətlərinin rəhbərləri Bakıda görüş keçirmişlər. Bu sahədə əməkdaşlığın dərinləşməsi, birgə təlimlər (o cümlədən Xəzər dənizində), birgə tədbirlər, operativ informasiya mübadiləsi ölkələrimizin təhlükəsizliyini daha da möhkəmləndirəcək.

Nəqliyyat sektorunda əməkdaşlığın çox gözəl və ümidverici gələcəyi vardır. Azərbaycan dünyada yeganə ölkədir ki, həm İran, həm Rusiya ilə sərhədi var. Hazırda Rusiya ilə Azərbaycan arasında dəmir yolu əlaqəsi mövcuddur. Bu il biz qərar qəbul etmişik ki, yaxın gələcəkdə Azərbaycan İran sərhədinə qədər öz dəmir yolunu uzatsın. Ümid edirəm ki, biz yaxın aylarda buna nail olacağıq. Eyni zamanda, bu yaxınlarda Azərbaycan-İran sərhədində Astaraçay üzərində dəmiryolu körpüsünün təməlqoyma mərasimi keçirilib. Bu infrastruktur layihələri "Şimal-Cənub" nəqliyyat dəhlizinin ayrılmaz tərkib hissəsidir.

**(Ardı 2-ci səhifədə)**

# Bakıda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşü keçirilib

(Əvvəli 1-ci səhifədə)

"Şimal-Cənub" nəqliyyat dəhlizi strateji əhəmiyyət daşıyan transmilli layihədir. Gələcəkdə bir çox ölkələr bu dəhlizdən istifadə edəcəklər. Bu dəhlizin çox böyük iqtisadi səmərəsi vardır. Tranzit yüklərin daşınması üçün vaxt baxımından da bu yol çox əlverişlidir. Ümid edirəm ki, birgə səylərlə bu layihənin icrasına tezliklə nail olacağıq.

Sevindirici haldır ki, ölkələrimizdə dini və milli məsələlərdə heç bir problem yoxdur. Bu, bizim ölkələrimizin qazandığı dəyər və sərvətdir.

Azərbaycan əsrlər boyu müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Tarix boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh, qardaşlıq şəraitində yaşayıblar. Multikulturalizm Azərbaycanda həyat tərzidir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib.

Azərbaycan nadir dövlətlərdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Avropa Şurasında təmsil olunur. Ölkələrimiz bu təşkilatlar daxilində uğurla əməkdaşlıq edir.

Hörmətli həmkarlarım. Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsini göstəririk. Biz bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə, hətta bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu olan regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik.

Diqqətinizə görə minnətdaram.

## İran Prezidenti Həsən Ruhaninin çıxışı

- Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

Rusiya Federasiyasının Prezidenti hörmətli cənab Vladimir Putin.

Hörmətli qonaqlar.

İlk növbədə Azərbaycan Respublikasına qonaqpərvərliyə və belə bir görüşü keçirməsinə görə minnətdarlığımı bildirirəm.

İran İslam Respublikasının xarici siyasətinin prinsiplərinə əsasən, qonşu ölkələrlə əlaqələrin genişləndirilməsi əsas götürülür. Ona görə də İran hər hansı bir təşəbbüsə, razılaşmalara, anlaşmalara tərəfdardır. İran, Azərbaycan və Rusiya arasında olan üçtərəfli görüş fikir mübadiləsinə, ortaq mənafelərin yaranmasına imkan verir. İran İslam Respublikası bu ideyanı yüksək dəyərləndirir. Şübhəsiz ki, bu üçtərəfli görüşün keçirilməsi regionda təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələrimizin əlaqələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Bu üç qonşu ölkə regionda geosiyasi və coğrafi baxımdan mühüm önəmə malikdir.

Ölkələrimiz siyasi, iqtisadi, mədəni, sosial, texnologiya sahələrində bir sıra təhlükələrlə üz-üzədir. Bu, onların qarşılıqlı anlaşmaya nail olmasını əvvəlkindən də artıq zəruri edir. Biz İran İslam Respublikasında inanırıq ki, indiki şəraitdə müxtəlif təhdidlərlə üzləşən bir ölkənin təkbaşına fürsətlərdən yararlanma imkanı olmayacaq. Hər ölkənin xalqının rifah və firavanlığı üçün başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə əməkdaşlıq lazımdır. İranın xarici siyasəti başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə əməkdaşlıq, habelə müştərək mənafeyə əsaslanır. Bu sahədə aparılan müzakirələrin, danışıqların faydalı olduğunu hiss edirik.

Müxtəlif tarixi, mədəni, dini və sosial sahələrdə ortaq dəyərlər, habelə mövcud potensiallardan zamanında yararlanmaq üçtərəfli əlaqələrin genişlənməsi üçün fürsətlər yaradır. Müxtəlif potensiallardan istifadə, enerji məsələləri, habelə geosiyasi, coğrafi mövqe üç qonşu ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından böyük bir fürsətdir. Digər tərəfdən, terrorizm, ekstremizm, ekoloji sahədə müxtəlif problemlərin yaranması, mütəşəkkil cinayətkarlıq və digər problemlərlə mübarizə hər üç ölkənin anlaşmaya nail olmasını tələb edir.

Son illərdə dünyada baş verən dəyişikliklər, əməkdaşlıq və ortaq fikrə sahib olmaq bu problemlərə üstün gəlməyin mümkünlüyünü göstərir. Görürük ki, potensialdan istifadə etmək mümkündür. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə əlaqələrdə çox müsbət dəyişikliklər baş verib. Bu iki ölkə arasında yaxşı qonşuluq münasibətləri var, əlaqələrin genişlənməsi üçün müxtəlif təşəbbüslər irəli sürülüb. Ticari-iqtisadi əməkdaşlığın genişlənməsi baxımından gömrük sahəsində əməkdaşlıq, elektrik xətlərinin, habelə dəmir yollarının birləşdirilməsi ilə bağlı anlaşmalar, Astaraçayın üzərində körpünün salınması, həmçinin Xudafərin su mənbəyindən müştərək istifadə edilməsi kimi faktları göstərmək olar.

Rusiya ilə ikitərəfli əlaqələrimiz göstərir ki, hər iki ölkənin rəhbərləri arasında xüsusilə son iki ildə yaxşı münasibətlər var. Bu iki ölkənin əlaqələrinin genişləndirilməsi və nüvə probleminin həlli üçün eyni mövqeyə sahib olmaları, xüsusilə Suriya məsələsində əməkdaşlıq münasibətlərin inkişafına sübutdur. Bunu xüsusilə üçtərəfli əməkdaşlığa sirayət etdirmək də mümkündür. O cümlədən viza rejiminin sadələşdirilməsi, sərmayə qoyuluşu, gömrük və texnologiya sahələrində əməkdaşlıq ticari əlaqələrin genişlənməsinə bariz nümunədir. Bu, həmçinin əlaqələrin inkişafı üçün böyük perspektiv açır.

İran hesab edir ki, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sahələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq. Bu ölkələrin bir-birinə yardım etmələri regionda mövcud olan təhdidlərə qarşı mübarizə sahəsində əməkdaşlığa da töhfə verə bilər. Regionda üç ölkənin əməkdaşlığı sayəsində inkişafın mümkünlüyünə inanırıq. Bugünkü görüş bunu bir daha göstərir.

Ticari-iqtisadi əlaqələrin genişləndirilməsi, enerji, nəqliyyat, bank, sərmayə qoyuluşu, turizm, habelə dəmir yolu, gəmiçilik sahələrində əməkdaşlıq üçün potensiallardan tam istifadə olunması, maneələrin aradan qaldırılması məqsədilə lazımi işlər görülməlidir. Üçtərəfli anlaşmalar bu baxımdan mühüm rol oynaya bilər. Hökumətlərarası müştərək komissiyaların fəaliyyəti üç ölkənin əlaqələrinin genişləndirilməsinə yönəldilib. İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu komissiyaya həmsədrliyi həyata keçirir. Təklif edirik ki, bu komissiyanın sədrləri belə anlaşmaların imzalanması və yeni əməkdaşlıqların genişləndirilməsi və sərmayə qoyulması, üçtərəfli layihələrin həyata keçirilməsi üçün lazımi işlər görsünlər.

Həqiqətən də iqtisadi inkişaf və rifah regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir. Belə bir şəraitdə terrorizmə və ekstremizmə qarşı mübarizə, sabitliyin və təhlükəsizliyin təmin olunması müxtəlif fikir ayrılıqlarını müzakirə və danışıqlar yolu ilə həll etməyin mümkün olduğunu göstərir. Terrorizmlə, ekstremizmlə mübarizədə əməkdaşlığımızın potensialından istifadə etmək faydalı olar. Diqqətinizə görə təşəkkür edirəm.




## Rusiya Prezidenti Vladimir Putinin çıxışı

- Çox sağ olun, hörmətli cənab Prezident Əliyev.

Hörmətli Prezident Ruhani.

Hörmətli həmkarlar.

Əvvələn, bu üçtərəfli görüşün təşkil edilməsi təşəbbüsünə görə Prezident İlham Heydər oğlu Əliyevin ünvanına İran Prezidentinin indicə söylədiyi təşəkkür sözlərinə qoşulmaq istərdim.

Azərbaycan və İran Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlardır. Biz bir-birimizlə səmərəli əməkdaşlıq üzrə zəngin təcrübə toplamışıq. Sözsüz ki, bu gün biz münasibətlərimizdə yeni səhifə açırıq, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk. Bizim fikrimizcə, bu cür formata ehtiyac olması aşkardır. Üç ölkəni birləşdirən əsas amil geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir. Onu da qeyd edim ki, bütün dövlətlər, hər halda çoxsaylı dövlətlər bu cür problemlərlə üzləşir. Bu, davam edən qlobal iqtisadi böhrana da, gərginliyə də aiddir. Bizim ölkələr üçün bu, çox cəhətdən onunla bağlıdır ki, indicə dediyim gərginlik sizin və bizim sərhədlərdə xeyli dərəcədə mövcuddur. Mən həm Əfqanıstanı, həm də Yaxın Şərqi, qeyri-sabitlik zonalarını və qaynar münaqişələri, ilk növbədə İŞİD, "Cəbhət ən-Nusra" və digər terror təşkilatları tərəfindən artmaqda olan terror təhlükəsini nəzərdə tuturam. Bütün bunlar bizim üçün real təhlükədir. Bu problemlərin həlli yollarını birgə axtarmaq istəyi ölkələrimizin daha sıx qarşılıqlı əlaqəsini tənzimləmək zərurətini şərtləndirir. Üçtərəfli əməkdaşlığın əsas istiqamətləri bizim bugünkü Zirvə toplantısının yekunlarına əsasən qəbul edəcəyimiz Bəyannamədə göstərilib.

Rusiyanın nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edən bəzi məsələləri qeyd etmək istərdim. Məsələn, beynəlxalq terror təşkilatlarının fəaliyyəti barədə informasiya mübadiləsinin fəallaşdırılmasını məqsədəuyğun hesab edirik. Bu, ölkələrimizin ərazisindən silahlıların, silahların və narkotiklərin tranzitinin qarşısının daha səmərəli alınması üçün lazımdır.

Ümid edirik ki, Xəzər problemlərinə dair üçtərəfli dialoq da Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacaq. Əminəm ki, Konvensiyanın imzalanması və onun müddəalarının reallaşdırılması Xəzəryanı beş ölkənin hamısının mənafelərinə uyğundur.

Nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığın perspektivi ümidverici görünür. Mən Azərbaycan Prezidentinin artıq qeyd etdiyi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin Qərb şaxəsinin yaradılması planlarını nəzərdə tuturam. Energetika sahəsində ilk növbədə Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi layihələrinin reallaşdırılmasını prioritet hesab edirik. Biz hasil edilən xammalın daşınması üçün boru kəməri infrastrukturundan birgə istifadə edilməsinin qarşılıqlı faydalı sxemlərini də müzakirə etməyə hazırıq.

Təbii ki, mədəniyyət, turizm, gənclərin mübadiləsi, təhsil sahəsində əməkdaşlıq məsələlərinə diqqəti artırmaq, üç ölkənin regionları arasında birbaşa əlaqələrin inkişafına şərait yaratmaq lazımdır.

Əminəm ki, qonşuların - Rusiya, Azərbaycan və İranın əməkdaşlığı gələcəkdə də praqmatik, qarşılıqlı faydalı xarakter daşıyacaq və ölkələrimizin xalqlarının köklü maraqlarına cavab verəcək, bütün Xəzər regionunun dinamik inkişafı üçün yeni imkanlar yaradacaq.

Hörmətli həmkarlar, sözsüz ki, biz hələ çox iş görməliyik və Sizi əmin etmək istəyirəm ki, Rusiya birgə fəal işə hazırdır.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonda Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzaladılar.

## Ön xətdən reportaj

# "Torpaqlarımızı işğaldan azad etmək borcumuzdur!"

Yayın istisində əsən meh sanki uzaq dağların sərinliyini, Vətən oğullarının döyüş növbəsi apardığı yüksəkliklərə gətirir. Havaların necə keçməsindən asılı olmayaraq, əsgərlərimiz qarşı tərəfdəki düşməni bir an belə gözdən qoymur, erməni zinvorlarının hər bir hərəkətini nəzarətdə saxlayırlar. Mayor Vüsal Bayramovla ön xətdə, döyüş postlarına gedərkən görüşdük.

> Ümummilli lider Heydər Əliyev:
>
> *Orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.*

- Hazırda təmas xəttində nisbi sakitlikdir, - mayor deyir. - Aprel döyüşlərindən sonra atəşkəsə nisbətən əməl edilir. Ancaq hərdən düşmən mövqelərimizi atəşə tutur. Ötən gecə bizim bölmənin döyüş postları iki dəfə qarşı tərəfdən atəşə tutulub. Bu barədə komandanlığa məlumat verilib və düşmənin susdurulması üçün öz tədbirimizi görmüşük.

Aprel döyüşlərində bu ərazilər də düşmən tərəfdən müxtəlif silahlardan güclü atəşə məruz qalmışdı. Ancaq döyüşçülərimizin peşəkarlığı, mövqelərin mühəndis-istehkam baxımından möhkəmliyi itkilərin qarşısını almışdı.

- Bu gün şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhu yüksək səviyyədədir, - zabit Bayramov söhbətinə davam edir. - Aprel döyüşləri zamanı ordumuzun bölmələri düşmənə sarsıdıcı zərbələr endirdi, vacib yüksəklikləri ələ keçirdi. Bu, döyüşçüləri daha da ruhlandırdı. Əsgərlərimiz Azərbaycanın əmin-amanlığını qoruduqlarını başa düşür, Vətənin müdafiəçisi kimi məsuliyyəti dərk edirlər.

Zabit Bayramovdan nümunəvi xidmətilə seçilən hərbi qulluqçuları soruşduqda bütün şəxsi heyətin vəzifə borcuna məsuliyyətlə yanaşdığını, döyüş postlarında ayıq-sayıq növbə çəkdiyini, xidmətində nümunəvi olduğunu qeyd etdi.



Taqım komandirinin müavini gizir Saleh Xəlilovun adını isə xüsusi vurğuladı. Bu taqımın döyüşçüləri həm intizamı, həm də hazırlığı ilə seçilir və həmişə vəzifələrini məsuliyyətlə yerinə yetirirlər.

- Mən hərbçi peşəsini təsadüfən seçməmişəm, - gizir deyir. - Vətəni qorumaqdan yüksək vəzifə və peşə yoxdur. Qarşıdakı işğal edilmiş ərazilər də bizim əzəli yurd yerlərimizdir. O yerlərə gedə bilməmək məni bir kişi kimi, azərbaycanlı kimi üzür. Amma inanıram ki, öz ordumuzun gücü ilə o torpaqlarımızdan düşməni qovaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik.

Gizir Xəlilov daim şəxsi heyətlə birlikdə ön mövqelərdə döyüş növbəsi aparır. Gecəgündüz əsgərlərimiz postlarda düşmən mövqelərini müşahidə edir, ayıq-sayıq mövqeləri qoruyurlar.

- Atışma hərdənbir olur, - gizir Xəlilov düşüncələrini bölüşür. - Amma aprelə qədərki kimi intensiv atışmalar olmur. Düşmən bizim mövqeləri atəşə tutanda isə cavab atəşilə onları susdururuq. Baş verən hadisələr postlarda müşahidə gündəliyində qeyd edilir və hər bir hadisə barədə dərhal komandanlığa məruzə edilir.

Gizir Xəlilov əslən Astara rayonundandır. Əsgər kimi Vətənə borcunu verdikdən sonra ömrünü birdəfəlik Vətənə xidmətə bağlayıb. Gizirlər məktəbini bitirdikdən sonra hərbi hissədə taqım komandirinin müavini vəzifəsinə təyin edilib. Artıq iki ildir ki, ön mövqelərdə Vətənimiz Azərbaycana xidmət edir. Söhbət etdiyim zabitlər də gizir Xəlilovun intizamlı, məsuliyyətli bir hərbçi olduğunu, vəzifəsinə həmişə peşəkarcasına yanaşdığını vurğuladılar.

Qeyd edim ki, bölmənin döyüş postları mühəndis-istehkam hazırlığı baxımından olduqca möhkəm qurulub. Əslində hərbçilər, döyüş əməliyyatlarında iştirak etmiş insanlar



yaxşı bilirlər ki, savaş meydanında istehkamçılarsız keçinmək mümkün deyil. Döyüş bölmələrinin ərazidə təhlükəsiz hərəkəti, düşmənin müdafiə mövqelərinə soxulmasının qarşısının alınmasında istehkamçıların gördüyü işin önəmi danılmazdır.

Ön xətdə çox böyük mühəndis işləri görülüb, səd və səngərlərimiz bərkidilib. Atəş nöqtələri, postlarımız dəmir-beton vasitələrlə möhkəmləndirilib ki, düşmən şəxsi heyətə heç bir zədə yetirə bilməsin.

Eyni zamanda şəxsi heyətin və texnikanın müxtəlif hava şəraitində sərbəst və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə mühəndis texnikasının köməyilə yollarda lazımi şərait yaradılıb. Düşmən tərəfdən müşahidə edilməməsi üçün açıq istiqamətli yollar boyunca torpaq siperlər çəkilib.

Təbii ki, hər bir komandirin gücü onun əsgərlərindədir. Əsgərsiz komandir patronsuz silah kimidir. Hazırlıqlı, intizamlı əsgər əsl düşmən çəpəridir.

Taqımda ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılanlar var. Onlar burada bir-birini tanıyıb, dostlaşıb, qardaşlaşıblar. Ən başlıcası isə odur ki, əsgərlərimiz birbirinə dayaq, silahdaşdırlar. Düşmənə birgə sinə gərirlər. Həm də yaxşı başa düşürlər ki, onların gücü birlikdədir.

Əsgər Elməddin Həsənov döyüş postunda növbədə idi. O, Goranboy rayonunun Xanqərvənd kəndində bənna ailəsində doğulub və doğma kəndlərində yaşayırlar. İki qardaşı Vətənə əsgəri borcunu verib. İndi növbə Elməddinindir. O, artıq bir ilə yaxındır ki, xidmət edir. Orta ixtisas təhsilli Elməddin tar üzrə musiqi təhsili alıb. Bizimlə söhbətində Elməddin dedi:

- Mən əsgərliyə gələndə



atam öyüd-nəsihət verdi, dedi ki, Vətəni qorumaq hər bir vətəndaşın borcudur. "Get layiqincə xidmət elə, üzüağ qayıt". Mən də onun öyüdlərinə sadiqəm. Çalışıram ki, atamın nəsihətinə uyğun xidmət edim. Bura gələn gündən kollektivə uyğunlaşdım. Özümə dəyərli dostlar qazandım. Başqa cür də ola bilməz. Burada düşmən qarşısında bir-birimizə arxa-dayaq olmalıyıq.

Öz döyüş postumu ayıq-sayıq qoruyuram. Hər kəs Vətənin keşiyində dayanmalıdır. Bu, övladlıq borcumuzdur. Hər şeydən öncə Vətəndir. Bizi komandirlərimiz belə başa salıblar. Mən də bu fikirlə razıyam.

Elməddinin əsgərlikdə olmuş qardaşları da ona hərbi xidmətə yola düşərkən dəyərli məsləhətlər vermişdilər. Demişdilər ki, intizamlı olmaq lazımdır. İntizamlı əsgər komandirlərinin hörmətini tez qazanır.

"Onu da deyim ki, orduya gələnə qədər düşmən haqda az-çox eşitmişdim, ancaq hərbi hissədə ermənilərin əməlləri barədə çox şey öyrənmişəm. Xocalıda, digər yerlərdə soyqırım törədiblər, azərbaycanlılara qarşı çox amansız olublar. Bunları unutmaq olmaz. Onlar bizim torpaqları işğal ediblər və o yerləri düşməndən azad etməyə borcluyuq".

Elməddin dayandığı postdan silahdaşları ilə düşmən mövqelərini daim müşahidə edir.

- Bir dəfə onların kəşfiyyat qrupu bizim mövqelərə hücum etmək istədi, - əsgər xatırlayır. - Onda mən də postda idim. Gecə vaxtı idi. Ancaq biz onların gəlişini gecəgörmə cihazları ilə müşahidə etmişdik. Qarşısını aldıq, onları atəşə tutduq. Qayıdıb qaçmağa məcbur oldular. Biz indi onlardan çox üstünük, həm də qarşıdakı torpaqlar bizim dədə-baba torpaqlarımızdır. Əsgər yoldaşlarımdan, komandirlərimdən çox razıyam. Mehriban kollektivimiz var, hamı bir-birinə arxa, dayaqdır.

Ön xətdəki postları tərk edərkən bir fikir düşüncələrimə hakim kəsilir. Bəli, bu yerlərdə gördüklərim əsl cəbhə həyatıdır. Və bütün çətinlikləri, mövcud intizamı, özünəməxsus rejimi, eyni zamanda dözümlü, mətin döyüşçülərilə adamda dolğun təəssürat oyadır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# “Tank biatlonu” müsabiqəsində reytinqə görə Azərbaycan tankçıları 5-ci yerdədir



"Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən Azərbaycan tankçıları fərdi yarışlar zamanı müsabiqənin növbəti mərhələsində bütün hədəfləri məhv edərək Ermənistan komandasını qabaqlayıb və yarımfinala vəsiqə qazanıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 15 mərhələdən ibarət olan və 18 ölkədən 54 tank heyətinin iştirak etdiyi "Tank biatlonu" müsabiqəsinin yarımfinalında Azərbaycan da daxil olmaqla 12 ölkənin komandası iştirak edəcək.

Yarımfinal yarışları zamanı 4 komandadan ibarət qruplarda tankçılarımız avqustun 11-də Rusiya, Serbiya və Hindistan komandaları ilə gücünü sınayacaq.



Avqustun 13-də yekun vurulacaq yarışların finalına 4 komanda çıxacaq.

Ən yaxşı heyət sıralamasında reytinqinə görə Azərbaycan tankçıları 5-ci yerdədir.

*Təlim*

# Təlimdən təlimə gücümüz artır

***İstənilən miqyaslı, istənilən təyinatlı təlim ordunun döyüş qabiliyyətinin artırılmasını təmin edir. Bu baxımdan hər təlimin özünəməxsus əhəmiyyəti vardır. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrimizdə yay tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə dərslər keçirilir, şəxsi heyətin vərdişləri möhkəmləndirilir. Nəticə etibarilə döyüş hazırlığı təkmilləşir, bu isə ordunun gücü deməkdir.***

"N" hərbi hissəsi cəbhə bölgəsində yerləşir. Məlum həqiqətdir ki, hər hərbi hissənin özünəməxsus vəzifələri vardır. Bu hərbi hissədə də qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün vasitələr hərəkətə gətirilib.

Bugünkü təlim şəxsi heyətin hazırlıq səviyyəsinə baxış xarakterindədir; hərbi hissə hazırlıq vəziyyətinə gətirilib, şəxsi heyət müəyyən müddətdə təyin olunmuş yerə çıxmalı, növbəti əmri gözləməlidir. Bunun necə, hansı səviyyədə yerinə yetirilməsi yoxlanılmalıdır...

"Həyəcan" siqnalı verilən kimi hər bir hərbi qulluqçu ona tapşırılan vəzifənin icrasına başlayır. Təmkinlə, səbrlə. zamanında yaxşı aşılanmış vərdişlərin icrası çətinlik törətmir. Əsgərlər verilmiş əmrləri vaxtında, lazımi səviyyədə yerinə yetirirlər...

Polkovnik-leytenant Etibar Əhmədov Silahlı Qüvvələrimizdə aparılan islahatlardan söz açaraq dedi:

- Ən müasir silahlara malik olan Silahlı Qüvvələrimiz Cənubi Qafqazda ən güclü ordudur. Aprel döyüşləri haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi bir fikir beynəlxalq ictimaiyyətin, dünya dövlətlərinin diqqətini bir reallığa yönəltdi: "Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər". Bu güc, bu potensial həm silahlanma ilə, həm də əsgər amili ilə bağlıdır.



Təyinatı hava hədəfini, yerüstü hədəfləri, yüngül zirehli daşıyıcıları məhv etmək olan zenit qurğusunun heyəti ilə söhbət etdim. Çavuş Ceyhun Cəfərov dedi ki, "Həyəcan" siqnalı verilən kimi nəzərdə tutulan əraziyə vaxtında çıxdıq və qurğunu atışa hazırladıq. Tuşlayıcı əsgər Samir Hacıyev, doldurucu Əhməd Cəfərli kimi təcrübəli əsgərlərimiz var. Onlarla "dağı dağ üstə qoymaq olar"...

Artilleriya bölməsi də əmri vaxtında yerinə yetirib. Mayor Paşa Ələsgərov şəxsi heyətin xidmətindən razılıqla danışaraq dedi ki, biz düşməni məğlub etmə gücündəyik. Əsgərlərimizin həm döyüş, həm də mənəvi hazırlığı yüksək səviyyədədir.

Baş leytenant Xəyyam Səmədov təlimdə artilleriyaçıların da fərqləndiyini dedi:

- Hesablayıcı çavuş İmran Cəfərov, tuşlayıcı Bayram Xudaverdiyev və başqaları verilən tapşırığı həmişə yüksək səviyyədə yerinə yetirir. Bu gün də belə oldu. Əmr vaxtında yerinə yetirildi. Toplanma yerinə vaxtında çatdıq, indi növbəti əmri gözləyirik.

Hər təlim döyüş hazırlığının yüksəldilməsinə hesablanır. Öyrədilənlər təlimdə bir daha cilalanır, təkmilləşir. Bugünkü təlim təsdiqlədi ki, "N" hərbi hissəsində də bu amil yüksək səviyyədə həyata keçirilir.

**Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

# “Tank biatlonu” yarışında tankçılarımızın uğuru ordumuzun işğal altındakı torpaqlarımızı azad etməyə hazır olduğunu göstərir

***Moskva yaxınlığındakı Kubinka təlim mərkəzində iyulun 30-dan etibarən keçirilən "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarında 18 ölkədən 121 komanda mübarizə aparır. Komandalar quru, hava və dəniz hazırlığı üzrə ümumilikdə 23 müsabiqədə iştirak edir. Üç mindən çox hərbçinin iştirakı ilə 20 təlim mərkəzində və 3 dəniz akvatoriyasında keçirilən oyunlar avqustun 13-dək davam edəcək.***

Bu barədə AZƏRTAC-a Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə məlumat verib.

Ə.Qənizadə bildirib ki, avqustun 2-də Alabino təlim mərkəzində "Tank biatlonu" müsabiqəsinə start verilib. Bu yarışda 18 ölkədən 54 tank heyəti iştirak edir. "Xəzər kuboku" və "Tank biatlonu" yarışlarında Azərbaycanı general-leytenant Nizam Osmanovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir. Azərbaycan tankçıları "T-72B3" tanklarında çıxış edirlər.

Qeyd olunub ki, müsabiqənin ikinci günündə keçirilmiş yeddinci gedişdə meydana çıxan Azərbaycan tankçıları yer aldıqları qrupda Serbiya, Tacikistan və Rusiyanın DOSAAF təşkilatını təmsil edən tankçılarla yarışıblar. Azərbaycan tankçıları çıxışını 28 dəqiqə 12 saniyə ərzində başa vuraraq qrup üzrə ikinci (Serbiyadan sonra) olublar. On beş mərhələdən ibarət olan və 18 ölkədən 54 tank heyətinin iştirak etdiyi "Tank biatlonu" müsabiqəsinin yarımfinalında Azərbaycan da daxil olmaqla 12 ölkənin komandası iştirak edəcək. Avqustun 11-də keçiriləcək növbəti mərhələdə - yarımfinalda tankçılarımız 4 komandadan ibarət qruplarda Rusiya, Serbiya və Hindistan komandaları ilə gücünü sınayacaqlar.

Ehtiyatda olan polkovnik deyib ki, "Fərdi sürücülük" mərhələsinin tələblərinə əsasən, hər tank heyəti uzunluğu 5 kilometr olan üç dövrə vurmalı, tankın topundan, zenit və qoşa pulemyotlardan atəş açmalıdır. Hər dairədə tanklar maneə və manevr sahələrini, çay və mina sahəsinin zəncirvarı keçidini, kurqan, alov zolağı, tank əleyhinə xəndəyi, eskarp və dağ ətəyi ərazilərdə yaradılmış müxtəlif maneələri dəf edir. Atəş mərhələlərində şərti düşmənin tank, helikopter və tank heyətlərinin hədəfləri məhv edilməlidir. "Fərdi sürücülük" mərhələsinin nəticələrinə görə, ən çox xal toplayan 12 komanda yarımfinala çıxaraq "Estafet" mərhələsində iştirak hüququ qazanıb. Avqustun 13-də yekun vurulacaq yarışların finalına 4 komanda çıxacaq.

Azərbaycan tankçılarını qazandıqları uğur münasibətilə təbrik edən və onlara daha böyük uğurlar arzulayan Ə.Qənizadə deyib: "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrlərinə əsasən, Silahlı Qüvvələrimiz döyüş təcrübəsinin artırılması sahəsində mütəmadi olaraq irimiqyaslı təlimlər keçirir.

Bunun nəticəsidir ki, "Beynəlxalq Ordu Oyunları - 2016" yarışında ilk dəfə iştirak edən Azərbaycan tankçıları hədəfləri ustalıqla vuraraq, manevrləri bacarıqla keçərək və yüksək idarəçilik qabiliyyəti nümayiş etdirərək müsabiqənin yarımfinalına vəsiqə qazanıblar. Komandamız ən yaxşı heyət siyahısında beşinci yerdə qərarlaşıb.

Azərbaycan Silahlı Qüvvələrinin aprel döyüşlərində göstərdiyi peşəkarlıq, düşmən üzərində əldə etdiyi qələbə və bu gün yarış iştirakçılarının göstərdiyi nəticə ordumuzun işğal altındakı torpaqlarımızı azad etməyə tam hazır olduğunu bir daha sübut edir".

# “Vətənə xidmət etməkdən qürurluyam”

*Azərbaycanın üzləşdiyi müharibə illərdir davam edir, torpaqlarımızın bir qismi işğaldadır. Ölkəmizin rəhbərliyi xalqın iradəsini ifadə edərək dəfələrlə beynəlxalq təşkilatlara bəyan edib ki, artıq sülh danışıqları qarşı tərəfin aqressivliyi səbəbindən nəticəsiz qalır və belə bir vəziyyətdə Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünü təmin etmək üçün istənilən vasitəyə əl atması qaçılmazdır.*

Əslində, bu ilin aprelində Ermənistan ordusunun cəbhənin müxtəlif istiqamətlərində törətdiyi təxribatlar da işğalçı dövlətin öz çirkin məqsədindən əl çəkmədiyini bir daha sübuta yetirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində intensiv sülh danışıqlarına beynəlxalq səviyyədə zəmin yarandığı bir vaxtda təcavüzkar tərəfin təxribatlara əl atacağı gözlənilən idi və dəfələrlə işğalçı ölkə rəhbərliyinin belə addımlarının şahidi olmuşuq. Qısamüddətli hərbi əməliyyatlarda Azərbaycan Silahlı Qüvvələrinin qazandığı uğurlar isə bir daha beynəlxalq aləmə göstərdi ki, ordumuz ölkənin ərazi bütövlüyünü tam təmin etməyə qadirdir.

Bu yaxınlarda cəbhənin Tərtər istiqamətində ezamiyyətdə olarkən hərbi hissənin şəxsi heyətində yüksək döyüş əhval-ruhiyyəsi olduğunu yenidən hiss etdim. Söhbətləşdiyim döyüşçülərin hər biri düşmənlə savaşa hazır olduğunu bildirərək torpaqları işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini səbirsizliklə gözlədiklərini dedilər.

Zabit Qəmbər Paşayev ön xətdə yerləşən bölmənin cavabdeh zabitlərindən biridir. 2000-ci ildə hərbi təhsilini bitirmiş zabitə görə, Azərbaycan Ordusunun uğurlu aprel döyüşləri bu gün şəxsi heyəti yeni qələbələr qazanmağa ruhlandırır. "Aprel savaşında bizim bölmənin şəxsi heyətindən olan hərbi qulluqçular da fərqləndilər. Bir neçə hərbi qulluqçumuz yaralandı. Biz hospitala dəfələrlə baş çəkib igid döyüşçülərimizin səhhəti ilə maraqlanırdıq. Əsgərlər də bir-bir yaxınlaşıb öz silahdaşlarının səhhətini soruşur, onlara həmrəylik nümayiş etdirirdilər. Belə döyüşçüsü olan ordu hər zaman qələbə qazanmağa qadirdir. Bu gün də şəxsi heyətimiz döyüş əhval-ruhiyyəsindədir və



onlar sülh danışıqları baş tutmasa, aprel zəfərini davam etdirmək əzmindədirlər".

Zabitlə birgə döyüş növbələrinə baş çəkəndə baş gizir Elman Abdullayevlə görüşdük. Hələ ilk ordu quruculuğu dövründə ordumuzun sıralarında əsgəri xidmətdə olmuş vətənpərvər gizir ömrünün tən yarısını başa vurmasına baxmayaraq, xidmətini davam etdirmək fikrindədir. Tabor komandirinin müavini onun haqqında söhbət açanda demişdi ki, təcrübəli gizirin bölmədə zəhməti böyükdür, hər bir əsgərə bir ata qayğısı ilə yanaşır və dəyərli tövsiyələrini heç kimdən əsirgəmir.

- Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirərək cəbhə bölgəsində xidmətə başlamışam, - deyə gizir bizimlə söhbətində bildirir. - Bu gün yaşımın bir qədər çox olmasına baxmayaraq, Vətənə xidmət etməkdən qürurluyam. Vətənpərvər əsgərlərimizin, məğrur və qürurlu gəncliyimizin orduda təmsil olunması xidmətə marağımı daha da artırır. Sevinirəm ki, Azərbaycan gəncliyi dövlətimizə, xalqımıza sədaqət ruhundadır və qələbə qazanmağa əmr gözləyir.

Bölüyün baş çavuşu kimi məsuliyyətli bir vəzifəni yerinə yetirən baş gizir söhbətinə davam edərək son vaxtlar orduda sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən həvəslə danışır. "Artıq şəxsi heyətin müasir məişəti üçün cəbhə xəttində də böyük işlər görülür. Dövlət rəhbərliyinin bu qayğısı bizi çox sevindirir. Hər bir döyüşçü ona göstərilən qayğını hiss edəndə, xidmətə həvəsi daha da artır, üzərinə düşən tapşırıqların öhdəsindən daim bacarıqla gəlir".

Düşmənlə üz-üzə mövqelərdə Vətənimizi qoruyan şəxsi heyətin məişət qayğıları ilə məşğul olan baş gizir E.Abdullayev söhbətimizin sonunda onu da bildirdi ki, istənilən anda əsgərlərlə birgə döyüşə atılmağa hazırdır, çünki dövlətin yüksək qayğısı ilə əhatə olunmuş hərbçilərimizin başlıca amalı və məqsədi düşməni torpaqlarımızdan tezliklə çıxarmaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müqəddəs borc

Deyirlər, sevgilər müxtəlif olur. Yəni valideyn sevgisi, ülvi hissləri dəyərləndirən sevgi və bir də bu sevgilərin zirvəsində, fövqündə dayanan Vətən, torpaq sevgisi. Hərdən özüm-özümə sual verirəm. “Görəsən, bu torpaqdakı insanı qeyri-ixtiyarı özünə çəkib bağlayan hansı qüvvədir?” Sualıma cavab tapmayıb belə qənaətə gəlirəm ki, bu qüvvənin adı hələ elmə məlum deyil. Doğma Vətənindən ayrı düşüb yad ölkədə dünyasını dəyişən qərib də "Mən öləndən sonra məzarımın üstünə Vətənimdən bir ovuc torpaq gətirib səpərsiniz", - deyə əzizlərinə vəsiyyət edir. Torpağın müqəddəsliyi haqqında müdriklərin əsrlərin daş yaddaşından bu günümüzə süzülüb gələn kəlamları, Oğuz elində ulu Dədə Qorqudun dediyi “Torpağı qorumadınsa əkib becərməyə dəyməz” fikri nə qədər əbədidir.



Erməni qəsbkarlarının işğalında olan torpaqlarımızı azad etmək üçün müqəddəs müharibəyə hər an hazırıq. İşğalçılıq həmişə torpaqsevərliyə məğlub olub. Bunu düşmən də bilməlidir. Zaman-zaman torpaq uğrunda qan tökülüb, Vətən yolunda minlərlə can qurban gedib. Uzaq, yaxın tariximizdə "Bir qarış belə torpağımızdan keçmərik" deyən qəhrəmanlarımız olub. Böyük hökmdar Cavanşirin, ordu sərdarı Babəkin, qoç Koroğlunun, Dəli Domrulun, Qazan xanın, Qaraça Çobanın, Şah İsmayıl Xətainin, Cavad xanın, Qaçaq Nəbinin... davamçıları yaşayır Azərbaycanımızda. Döyüş bölgələrində xidmət edən əsgərlərimizin dilində igidlərimizin nərəsindən qopan misralar səslənir. Saz havalarına, “Cəngi”yə ruhlanan igidlərimiz sərkərdələrimizin davamçıları olacaqlarına söz verirlər.

"Qəhrəmanlar yurdudur mənim yurdum", deyib şairlərimiz. Qarabağ müharibəsində döyüşçülərimiz şairlərimizin şeirlərindən ruhlanaraq, savaş meydanına atılırdılar.

Yüksək döyüş əhval-ruhiyyəsində olan Azərbaycan əsgəri daim tarixi mövzularda yazılan qəhrəmanlıq dastanlarına müraciət edir, Vətən, torpaq mövzusunda şeirləri, bədii əsərləri oxuyur. Bütün bunlar əsgərin mənəvi-psixoloji və döyüş hazırlığını istiqamətləndirən amillərdir.

Bu yaxınlarda cəbhə bölgəsindəki hərbi hissələrdən birində ezamiyyətdə idik. Düşmənlə yaxın məsafədə yerləşən bölmələrimizin apardığı xidmətin anlarını fotoaparatın yaddaşına köçürürdük. Bu zaman gənc zabitin xidmət yerində müşahidə aparması diqqətimizi çəkdi: leytenant Nurlan Səfərova düşmən işğalında olan ata-baba yurdu Qubadlını görmək nəsib olmasa da, hər gün, hər saat el-oba həsrətilə yaşayır. Nurlan düşmənlə üzbəüz mövqedə gecə-gündüz Vətənimizin keşiyini çəkən oğullarla bir sırada dayanıb, yurd yerlərimizi azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***8 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 19 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Mərzili, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Füzuli və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***9 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 20 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Aşağı Seyidəhmədli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Füzuli rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Sülhməramlılarımız Azərbaycanı şərəflə təmsil ediblər



*Avqustun 8-də Əfqanıstan İslam Respublikasında NATO-nun həyata keçirdiyi yeni "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 44 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.*



Uzun müddətdən sonra Vətən torpağına qədəm basan hərbçilərin gözlərində sevinc, üzlərində qürur vardı.

Polkovnik Qədir Nəsibov sülhməramlı kontingenti salamlayaraq uğurlu xidmət keçdikləri üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun təbrik və təşəkkürlərini çatdırıb.

Yaranmış fürsətdən istifadə edib qəzetimiz üçün müsahibə alıram. İlk müsahibim sülhməramlı kontingentin taqım komandiri leytenant Qalib Bağırovdur. O, ali hərbi təhsilini başa vurduqdan sonra burada xidmətə başlayıb.

Leytenant Q.Bağırov bildirir ki, Vətəndən uzaqda çətin və şərəfli vəzifəni yerinə yetiriblər.

- Kabul şəhərində yerləşən Həmid Kərzai adına beynəlxalq hava limanında mühafizəni təşkil edirdik. Azərbaycan, Türkiyə, Albaniya və Makedoniya sülhməramlıları bir tabor tərkibində xidmət keçirlər. Xidmətimiz ikiqat məsuliyyətlidir. Həm mühafizəni təşkil etməli, həm də nizam-intizamımızla, mədəniyyətimizlə təkcə özümüzü yox, Azərbaycanı təmsil etdiyimizi unutmamalıydıq.

"Azərbaycanlı sülhməramlılara digər ölkə nümayəndələrinin münasibəti necə idi?" sualımıza cavabında gənc zabit bildirdi ki, hər bir ölkə nümayəndəsinin Azərbaycan Ordusu haqqında kifayət qədər məlumatı vardı.

- Biz də vaxtaşırı söhbətlərimiz zamanı onlara Azərbaycanın tarixi torpaqlarından, Qarabağın ermənilər tərəfindən işğalından söz açırdıq, - deyə zabit söhbətinə davam edir. - Zaman keçdikcə hamı Azərbaycandan gələn sülhməramlı kontingentin nizam-intizamının, mədəniyyətinin və ən əsası qorxmazlığının şahidi oldu. Özüm də daxil olmaqla bütün hərbçilərimiz medallarla və fəxri fərmanla təltif olunublar. Uğurumuzun əsas səbəbi məsuliyyəti dərk etməyimizdir. Hər birimiz qarşımıza qoyulan vəzifənin məsuliyyətini dərindən hiss edərək yaxşı bilirdik ki, beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı altında xidmət etməklə Vətənimizi və Silahlı Qüvvələrimizi təmsil edirik.



Növbəti həmsöhbətim gizir Ramin Lətifovdur. 12 ildən çoxdur ki, sülhməramlı kontingentin tərkibində xidmət edən gizir dünyanın bir sıra münaqişə nöqtələrində olduğunu bildirir.

- Müddətli hərbi xidmətim də sülhməramlı qüvvələrin tərkibində keçib, - deyir. - Tərxis olunduqdan sonra gizir hazırlığı kursunu keçərək yenidən sülhməramlıların sırasına qatıldım. Əfqanıstana ikinci dəfə yola düşürdüm. Xidmətimin məsuliyyətini dərk edirdim, lakin əvvəllər orda olduğum üçün



özümdə rahatlıq vardı. Ailəmdən, qızımdan uzaq qalmaq çətin olsa da, xidmətimi layiqincə yerinə yetirməli, verilən tapşırığa məsuliyyətlə yanaşmalıydım. Şükürlər olsun ki, xidmətimizi uğurla başa vurduq və nəhayət, Vətənimizdəyik.

Çavuş Vüsal Şahverdiyev isə xidmətin nizamnamə çərçivəsində təşkil olunduğunu və yerləşdikləri ölkənin qayda-qanunlarına əməl etdiklərini bildirdi. "Bəlkə də, ən böyük xoşbəxtliyimiz azərbaycanlı kimi qədim bir xalqın övladı olmağımızdır. Bunu Vətəndən kənarda olarkən daha yaxşı dərk edirsən. Hərbi nizam-intizamımız, mehriban ünsiyyətimiz bizi fərqləndirən başlıca cəhət idi. Göstərdiyimiz birlik və bərabərlik digər ölkə nümayəndələrini də heyrətləndirirdi.

Türkiyə sülhməramlıları ilə aramızda olduqca mehriban münasibət və səmimiyyət vardı. Eyni millət və qardaş dövlət olduğumuz hər an hiss olunurdu".

- İnsan həyata bir dəfə gəlir. Və ona həyatın müəyyən mərhələlərində şanslar verilir. Bu şansı vaxtında dəyərləndirmək lazımdır, - deyir əsgər Vüsal İsgəndərov. - Ali təhsil alandan sonra hərbi xidmətimi sülhməramlıların sırasında keçirəcəyimi öyrəndikdə ikiqat sevinc yaşadım. Həm Vətənə əsgər olmağın, həm də sülhməramlı kimi müqəddəs missiyada iştirak etməyin sevinci. Anladım ki, bu, həyatın mənə verdiyi bir şansdır. Nəhayət, Əfqanıstana yollandıq. Orada da xidmətimi nizamnamə çərçivəsində, komandirlərin əmr və tapşırıqlarını vaxtında düzgün yerinə yetirməklə keçirirdim. Sülhməramlı kontingentlər arasında şahmat yarışı keçiriləcəyini eşitdikdə bu yarışa qatılmaq, Vətənimizi təmsil etmək istədim. Müxtəlif ölkələrdən 32 hərbi qulluqçunun qatıldığı yarışda 1-ci yerə layiq görüldüm. 2-ci yerə qardaş Türkiyənin nümayəndəsi olan bir zabit, 3-cü yerə isə danimarkalı leytenant sahib oldu. Medal, kubok və pul mükafatı ilə təltif olundum. Bu, tək mənim yox, Azərbaycanımızın uğuru idi.



Bütün ölkələrin sülhməramlı qüvvələri arasında xidmət etmək və medalla təltif olunmaq həqiqətən qürurvericidir. Mən də silahdaşlarım kimi Əfqanıstanda sülhün və təhlükəsizliyin qorunmasına töhfə verdiyim üçün sonsuz fəxr hissi duyuram.

Qeyd edək ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 nəfərdən ibarət hərbi qulluqçusu, o cümlədən 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.



**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

Ovqat

# Düşüncələr də Vətən deyir...

*Nə düşünürsən, Vətən oğlu, Vətənin oğlu? Düşüncələrin nəyə köklənib, səni nəyə kökləyir? Ürəyindən nələr keçir, nələr?..*

Ürəyinə yük olan düşüncələrin nədən belə kövrəkdi, nədən?

Sənin yaşından böyük olan işğalın bunca uzanmasıdımı ürəyini sıxan, duyğulandıran, xəyallara təslim eləyən?

Qaşların çatılıb, baxışların kövrəkləşib. Sən Azərbaycan əsgərisən. Hər xırda qayğı sənin duyumlu ürəyini tərpədə bilməzdi, hər xırda qayğıya görə "aranı dağa, dağı arana daşımazdın". Özün də etiraf eləyirsən ki, sizə də yüksək səviyyədə şərait yaradılıb. Güclü bir ordunun əsgəri olmağınla sən də qürurlanırsan. Ürəyini üzən düşüncələrin özünlə bağlı olmadığını dərk eləmək çətin deyil, Vətən oğlu, Vətənin oğlu.

Bəlkə, sevirsən? Bəlkə, sevdiyin düşüb yadına? Sevməyi bacarmaq fəzilətdi. Sevmək genişürəklilikdi. Sevməyi bacaran Vətəni daha dərini istəklərlə sevir. Sevməyi bacaranlar Vətəni ürəyinə təpər, gözlərinə nur, könlünə sultan bilir. Belə duyur, belə sevir...

Nə düşünürsən, nələr düşünürsən, Vətənin oğlu? Yurdundan perik düşənlərimi, ocağı sönənlərimi, gülü yarpıza dönənlərimi, onların sönmüş ocağında külə qarışmış közünümü, dağılan tifaqınımı, gözləri yollardan yığılmayan dağını-düzünümü, aranını-yaylağınımı, qəhərdən eyni açılmayan oylağınımı, səsini içinə çəkən bulağınımı?..



Şuşanı görməyib "Şuşalıyam" deyənlərimi, Laçını görməyib "Laçınlıyam", Ağdamı görməyib "Ağdamlıyam", ..., Zəngilanı görməyib "Zəngilanlıyam" deyənlərimi?

"Qarabağ şikəstəsi"ni, "Şuşanın dağları"nı eşidəndə ürəyi burxulan ağsaqqallarımı, "25 il ömrümdən deyil" deyən ağbirçəklərimi, ipək kəlağayısı saxlancdan çıxmayan gəlinin "Onu Ağdamda qardaşımın başdaşına sarılacağım gün örtəcəm" əhdinimi?..

Apreldən bəri Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımızımı xatırlayırsan? "Kaş ki, o bayrağı dalğalandıranların sırasında mən də olaydım" kəlmələridimi səni səndən alan?..

Üzü dağlara baxırsan, dağların o üzünü düşünürsən. Ürəyim mənə deyir ki, düşüncələrin Vətənə bağlıdı. Yoxsa bu qədər davamlı, görənlərə bu qədər doğma, bu qədər mehrli olmazdı. Səni xəyallarından ayırmağa ürəyim gəlmir...

Kövrək baxışlarını kirpiklərimlə örtmək istəyirəm ki, Gün vurmasın...

Bir azdan istirahət vaxtı başa çatacaq. Döyüş növbəsində dayanacaqsan, ağrı-acısını düşüncələrinə hopdurduğun Vətəni qoruyacaqsan, Vətən oğlu!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## İstanbulda demokratiya və şəhidlər mitinqinə 5 milyona yaxın insan qatılıb



İstanbuldakı Yeniqapı meydanında keçirilən demokratiya və şəhidlər mitinqinə 5 milyona yaxın insan qatılıb.

Mitinq Türkiyə Silahlı Qüvvələrinin mehtər bölüyünün çıxışı ilə başlayıb.

Sonra 15 iyul şəhidləri 1 dəqiqəlik sükutla yad edilib, Türkiyənin himni səsləndirilib. Daha sonra şəhidlərin ruhuna dua oxunub.

Mitinqdə Prezident Rəcəb Tayyib Ərdoğan, Baş nazir Binəli Yıldırım, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman, Cümhuriyyət Xalq Partiyasının rəhbəri Kamal Kılıçdaroğlu və Milliyyətçi Hərəkat Partiyasının rəhbəri Dövlət Baxçalı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar çıxış ediblər.

Qeyd edək ki, İstanbulla yanaşı, Türkiyənin 80 vilayətində də demokratiyaya və dövlətə dəstək mitinqləri keçirilib.

## Nepalda helikopter qəzaya uğrayıb



Nepalda "Fishtail Air" hava şirkətinə məxsus helikopter radarlardan itib.

Aviaşirkətin nümayəndəsi 9N-AKA tipli helikopter ilə əlaqəyə girə bilmədiyini bildirib. Helikopter Nepalın paytaxtı Katmandu şəhərinə uçurdu.

Radarlardan itən helikopterin qəzaya uğradığı məlum olub. Hadisə nəticəsində pilot və helikopterin salonundakı 6 nəfər həlak olub.

"Fishtail Air" hava şirkətinin direktoru Saman Pandi məlumatı təsdiqləyib.

## Pakistanda daşqınlar nəticəsində 29 nəfər ölüb, 20 nəfər itkin düşüb



Pakistanda yağan leysan yağışlarından sonra yaranan daşqınlar nəticəsində 29 nəfər ölüb, 20 nəfər itkin düşüb.

Təkcə Kəraçi şəhərində 14 nəfər ölüb. Şəhərin əksər ərazilərində elektrik enerjisi kəsilib.

Bəlucistan əyalətində təbii fəlakət 8 nəfərin həyatına son qoyub. Ölüm faktları, həmçinin ölkənin cənub və cənub-qərb bölgələrində də qeydə alınıb.

## Əfqanıstanda 75 terrorçu məhv edilib



Əfqanıstan hərbçiləri ölkənin bir sıra vilayətlərində aparılan hərbi əməliyyatlar zamanı ən azı 75 terrorçunu məhv ediblər. Bu barədə Əfqanıstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Məhv edilən terrorçular arasında "Taliban" hərəkatının üzvləri də olub. Əfqanıstan hərbçilərindən isə 11 nəfər həlak olub.

## Matterhorn dağına qalxmaq istəyərkən itən iki ingilis alpinist donaraq ölüb



İtaliya-İsveçrə sərhədindəki Matterhorn dağına qalxmaq istəyərkən itən iki ingilis alpinist donaraq ölüb.

İtaliyanın alpinist axtarış-xilasetmə qrupları ingilis alpinistlərin cəsədlərini 4 min metr yüksəklikdə, yarım metrlik qar yığınının altında tapıblar.

Adları və yaşları açıqlanmayan alpinistlərin havanın temperaturunun kəskin aşağı düşməsi nəticəsində soyuqdan donaraq öldükləri düşünülür.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr

## "Barak-8" kompleksi

"Barak-8" yerüstü kompleksi uçan aparatları, qanadlı raketləri, digər hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Bu silah müxtəlif hava şəraitində ilboyu fəaliyyət göstərə bilir. Onun yerüstü buraxıcı qurğusu səkkiz ədəd raketlə təchiz olunub və buraxıcı nəqliyyat konteynerlərində yerləşdirilib. "Barak-8" zenit-raket kompleksi müasir radiolokasiya sistemi ilə təchiz edilib. Bu raket vasitəsi ilə dənizdən və qurudan düşmən təyyarələrini, raketlərini, müxtəlif hündürlükdə uçan hava hədəflərini məhv etmək olar. Raket "Rafael" şirkəti ilə əməkdaşlıq nəticəsində hazırlanıb və özündə 4,5 metr uzunluğunda iki pilləli, qatı yanacaqlı idarəolunan raketi təsvir edir. Özütuşlanan aktiv sistemlə təchiz olunub. Raket şaquli buraxıcı qurğudan istifadə etməklə müxtəlif hava şəraitində 70 kilometr məsafədən hədəfi məhv edə bilir. Onun əsas xüsusiyyətlərindən biri çətin döyüş şəraitində eyni vaxtda bir neçə hədəfi ələ keçirməkdir. "Barak-8" hərəkətdə olarkən məlumatların raketə ötürülməsini təmin etməyə, eləcə də bölmələrin hərəkətini koordinasiya etməyə imkan verir.




Raketin hərəkət uzaqlığı 70 kilometr, uçuş sürəti saniyədə 680 metr, uzunluğu isə 4500 millimetr təşkil edir. Gövdəsinin diametri 225 mm, start çəkisi 110 kiloqram, döyüş hissəsinin çəkisi isə 25 kiloqram təşkil edir.

## Müasir nüvə silahı

Nüvə silahı hər hansı ölkə üçün təhlükədir və ondan istifadə istər-istəməz ətraf mühitə və yerin atmosferinə təsirsiz ötüşmür. Rusiya nüvə silahının istehsalına Sovet İttifaqı dövründən başlayıb. O dövrdə kütləvi qırğın silahının hazırlanması üzrə bir neçə layihə işlənilib.

ABŞ tərəfindən nüvə silahının istifadə edilməsindən sonra Sovet İttifaqında da belə oxşar silahların hazırlanmasına start verildi. 1946-cı ildə elmi təcrübə kimi qrafit reaktorun buraxılışı həyata keçirilib, 1948-ci ildə isə ilk sənaye reaktorunun hazırlanması üzrə işlər aparılıb. 1949-cu ildə Semipalatinsk poliqonunda "RDS-1" ilk nüvə qurğusunun sınağı keçirilib. Onun partlayış gücü 22 kiloton təşkil edib. Uğurlu sınaqdan sonra kütləvi şəkildə istehsal edilib. 1951-ci ildə isə daha bir nüvə qurğusunun sınağı həyata keçirilib. Onların daşınmasında strateji bombardmançı aviasiyadan istifadə edilib.



Elmi tədqiqat institutları tərəfindən nüvə elementlərinin istehsalı ilə bərabər, onların yeni modellərinin yaradılması üzrə də işlər aparılıb. Onlardan biri nüvə təchizatlı RDS-6-dır. 1953-cü ildə onun sınağı keçirilib. Sonra RDS-6-nın daşınma üsulları, ikipilləli termonüvə qurğularının da hazırlanması üzərində işlər aparılıb. Bununla yanaşı, müxtəlif silahlanma sistemləri, ölümgətirici qurğuların daşınması üçün texniki vasitələr hazırlanıb. Bu vasitələr qitələrarası ballistik raketlərdir.

İlk qitələrarası ballistik raket "R-5M" adını alıb və 1956-cı ildə silahlanmaya qəbul edilib. Həmin dövrdə nüvə gəmilərinin yaradılması, nüvə döyüş təchizatlarının sualtı qayıqlarda yerləşdirilməsi istiqamətində işlər aparılırdı. Artıq donanma da nüvə torpedoları ilə silahlanırdı. Həmin ildə də ilk ballistik raketin buraxılışı olub.

Rusiyanın müasir nüvə silahı özünə "Topol-M" raket kompleksini daxil edib. Bundan başqa quruda, dənizdə və aviasiyada nüvə silahı yerləşdirilib. Müasir nüvə silahını nüvə elementləri və komponentləri ilə təchiz edilmiş sistem kimi xarakterizə etmək olar. Buna misal olaraq donanmaya məxsus "Borey", "Akula", "Delfin" və "Kalmar" raket daşıyıcılarını göstərmək olar.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Dağlarda görüş

...Dağlardayam...

Dağlardan o tərəfə enən cığırın qayibanə səsini eşidirəm:

- Niyə gəlmədin?..

Gözdolusu qarşıdakı ucalığa baxıram. Düşüncələrimin əsgər düşüncələrinə, əsgər sevgisinə köklənməsini arzulayıram. Bu istəklə gəldiyim məkandayam...

Təbiət bəşərilik üçündü, insanların duyğusu, duyumu üçündü; dağ görürsən, baxırsan, gözlərin doymur, ürəyin tellənir...

Dağlardayam...

Dağ sözünün yozumlarından biri də vüqardı. Vüqarlı dağlar ifadəsi hamının könlünə yatır. Mən vüqarına güvəndiyim əsgərlərin əhatəsindəyəm, əsgərlər mənim qədərsiz ehtiramımın əhatəsindədi. Vətəndən danışırıq, torpaqdan, torpağın ağrılarından, o ağrıların məlhəmindən, hərbi xidmətdən, ... danışırıq. Söz sözü çəkir...

Ucalıqlarda gördüyüm qartal uçuşunu heyranlıqla, sevgilə izləyirəm. Ürəyimdən keçənlərə görə əlim ahəstəcə əsgərlərdən birinin çiyninə enir. Əsgərin baxışlarında gördüyüm qətiyyəti, cəsarəti sözlə ifadə edilməsi mümkün olmayan təsəlli bilirəm; qətiyyətində, cəsarətində qartallıq gördüyüm, görüb əzizim kimi bağrıma basmaq istədiyim (və bağrıma basdığım!) əsgərlərimizlə - dağların (deməli Vətənin!) hayançılarıyla görüş ömrümə yazılır. Zamanında Ərgünəşdə, Məngəlanatada, Vəngdə, Şüküratazda, Murovdağda, ötən ilin iyulunda Alagöllərdə, bu ilin aprelində Lələtəpədə, iyununda Murovdağda olduğu kimi...

Qartalın ecazkar uçuşunu izləyə-izləyə düşündüklərimi taqım komandiri baş leytenant Dilqəm Məmmədovla bölüşürəm. "Haqlısan", - deyir. - Əsgərlərdən birinin atası, birinin əmisi-dayısı, birinin qonşusu birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Hər biri hərbi xidmətə müəyyən mənəvi hazırlıqla gəlir. Biz döyüş hazırlığıyla bərabər o hazırlığı da davam etdiririk. Bu, ordunun gücü üçündü...".

Nəyi xatırlayırsa, sözünə davam edir:

-Təmas xəttində, həm də dağlıq ərazilərdə xidmətin bəzi çətinlikləri olur. Bu çətinliklər dözümlə, iradəylə, hərbi mundirə ehtiramla, hərbi anda sədaqətlə, deməli, Vətən sevgisiylə aradan qaldırılır. Çətinliklər bu səbəbdən hərbi xidmətə təsir göztərə bilmir. Azərbaycan əsgəri dözümlüdü, iradəlidi, vətənsevərdi. Hardansa oxuduğum bir beyti xatırlayıram:

Vətən istəyərsə,
Vətənə görə
Candan keçənlərin
sırasındayam.

İnanıram ki, bu kəlmələr bizim əsgərlərin də hərbi xidmət amalıdı.

Komandirin əsgərlərinə qədərsiz inamı mənə könül xoşluğu verir. Müharibə hələ başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. Sülh danışıqları baş tutmasa, son sözü Azərbaycan əsgəri deyəcək, onda onlar bu inamla döyüşəcəklər. Qələbənin mənəvi təminatçısı həm də bu inam olacaq...



Komandirin qürurlandığı əsgərlərlə kəlmələşirəm:

- Aprel döyüşlərində hərbi xidmətdən tərxis olunanların döyüşə getmək istəməsi biz əsgərlərin qələbə ruhunu kükrətdi. Xalqın orduya sevgisi, güvənci, inamı bizim cəsarətimizə cəsarət, qətiyyətimizə qətiyyət oldu - əsgər Nicat Həziyev belə deyir.

Yadıma 1993-cü ilin yayında Ağdərədə Yusif Mirzəyevdən eşitdiyim bir kəlam düşür: "Ən güclü silah əsgərdi"...

- Torpaqlarmız işğaldan mütləq azad ediləcək. Qələbə gününün sevincini hərbi mundirdə yaşamaq istərdik, - əsgər Fərid Əliyev belə deyir.

"Müqəddəs niyyətin yolunda yellər əsə bilməz!" - düşünürəm...

- Neçə illər əvvəl bir filmə baxmışdım: "Biz qayıdacağıq!". Müharibənin nə olduğunu onda dərk eləmişdim. Qaçqınların doğma yurd həsrəti, ecazkar səsiylə hamını heyrətləndirən 12-13 yaşlı uşağın düşüncələri məni də təsirləndirmişdi. Onları bu ağır dərddən biz qurtarmalıyıq. Qurtaracağıq. Mütləq qurtaracağıq, - əsgər Amid Qurbanov belə deyir...

Əsgərlərin dedikləri zabitlərin ürəyinin təpərinə, gözlərinin nuruna dönür. "Buraya ucalıqda xoş ovqatı yaşamaq üçün gəlmişik" - deyirəm. Dediklərimi qürurdan, sevincdən süzülən kəlmələr tamamlayır:

- Dağlarda yaradılan bu şəraitə görə Ali Baş Komandana, Müdafiə nazirinə minnətdarıq. Təlimata müvafiq hərbi xidmət, təlimata müvafiq məişət, təlimata müvafiq istirahət. Təbii ki, belə şəraitdə əsgərin döyüş hazırlığı da yüksək olacaq, mənəvi hazırlığı da, - mayor Bəhmən İbrahimov belə deyir...

İllərin dostu-sirdaşı kimi kəlmələşdiyim əsgərlərin əhatəsində ..."uca dağlar, gen dərələr" görürəm, "könül açan mənzərələr" görürəm. Hər birinin hər kəlməsi Vətənə bağlıdı; əsgərlərimiz Vətəni dildə də yaşadır, ürəkdə də...

- Qələbə günü ilk müsahibəni məndən alarsınız, - əsgər Nihad Əliyev belə deyir və hansı duyumun təsirindənsə əsgər yoldaşlarına baxır, yəni təkcə məndən yox, elə sizdən də. Bu səssiz etirafı Nihadın mənəvi dünyasının işığı bilirəm...

Söhbətimiz nədən belə şirindi? Nədən söz sözü çəkdikcə kəlmələr daha könüləyatımlı olur? Nədən eşitdiklərimi bağayarpağı əvəzi ruhumun sızıldayan ağrılarına sürtmək, işığını gözlərimin nuruna qatmaq istəyirəm? - dağlarda, dağ vüqarlıların əhatəsində ovqat belə yaşanılır...

Rəngi avazıyan çənçiskin çəkiləcək, gördüyümüz dağların sinəsindəki səngərlər sərhədlərə köçürüləcək, bu səngərlərin yeri laləzara çevriləcək. Dağlarda görüş bu inamı düşüncələrimə hopdurur. Könlümdən duman kürkü çiynindən sürüşmüş dağlardan o tərəfə enən cığıra düşmək keçir. Bayaq kəlmələşdiyim əsgərlərə baxıram. Onların baxışlarında gördüklərim üreyimi arzuladığımız günün sevinciylə silələyir. O baxışlarda səbr görürəm. "Bu səbrin müddəti Ali Baş Komandanın əmrinə qədərdi..." - pıçıldayıram. Pıçıltımı dağlar eşidirmi görəsən?!..

"İzlərimiz dağlardan o tərəfə enən cığırlardan itməyəcək, o cığırlar əvvəlki təmaslarla oyanacaq...". Düşüncələrim "uca dağların, gen dərələrin", "könül açan mənzərələrin" keşiyində dayananlarla görüşdən durulaşır...

Könlüm də bir gəraylıya köklənib, sözüm də:

İzlər görünməz olub,
Dağlardan enən cığır.
Yad nəfəsi dəyincə
yolundan dönən cığır.

Sovur, həsrəti sovur,
Nəfəs dərək bir hovur.
Ürəyimdə bir uğur
yoluna dönən cığır.

Dağ - göylərin dayağı,
Xınalansın ayağı...
Hərdən şair sayağı
Kövrəlib dinən cığır...

Dağlardan enmək istəmirəm; ecazkarlıqdan, ecazkar görüşdən ayrılmaq asan deyil...

Yaxın vaxtlarda bura yenə gələcəm. Əsgər Orxan İmamverdiyevin dediyi kimi, onda buralarda səngər olmayacaq. Səngərləri köç eləmiş dağlarda nələr düşünəcəm görəsən?..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## "Rio-2016" Yay Olimpiya Oyunları



### Cüdoçumuz Rüstəm Orucov Azərbaycana ilk medalı qazandırdı



"Rio-2016" Yay Olimpiya Oyunlarında Azərbaycan yığma komandası ilk medalını qazanıb.

Olimpiadada mübarizəyə onaltıdabir mərhələdən başlayan cüdoçumuz Rüstəm Orucov (73 kq) bu mərhələdə Qazaxıstan təmsilçisi Didar Hamzanı məğlub edib. R.Orucov səkkizdəbirdə Jake Bensted (Avstraliya) üzərində ipponla qələbə qazanıb. Azərbaycan idmançısı dörddəbirdə "London-2012" Olimpiya Oyunlarının gümüş mükafatçısı, Macarıstan təmsilçisi Miklos Unqvarini məğlub edib. Yarımfinalda Saqi Muki (İsrail) ilə qarşılaşan R.Orucov görüşü qələbə ilə başa vuraraq finala yüksəlib. Qələbəyə gedən yoldakı sonuncu sınağında yaponiyalı Şohei Onoya uduzan cüdoçumuz XXXI Yay Olimpiya Oyunlarını gümüş medalla başa vurub.

### Teymur Məmmədov növbəti mərhələdə



"Rio-2016" Yay Olimpiya Oyunlarında boks üzrə növbəti qarşılaşmalar keçirilib. 2012-ci il London Olimpiadasının bürünc və I Avropa Oyunlarının qızıl medalçısı - millimizin bayraqdarı Teymur Məmmədov 81 kiloqram çəki dərəcəsində onaltıdabir mərhələdə ilk görüşünü uğurla başa vurub. Boksçumuz ukraynalı rəqibi Denis Solonenkonu 2:1 hesabı ilə məğlub edərək səkkizdəbir final mərhələsinə yüksəlib. Avqustun 12-də növbəti döyüşünə çıxacaq idmançımızın rəqibi Peter Mullenberq olacaq.

### Azərbaycan təmsilçisi yarımfinala yüksəlib



Olimpiada tarixində ölkəmizi ilk dəfə kanoe-slalom idman növündə təmsil edən Yure Meqliç yarımfinala yüksəlib. Otuz iki yaşlı idmançı birnəfərlik kayak qayığı (K-1) ilə ilk iki seçmə mərhələ keçidindən sonra 15 nəfər ən yaxşı nəticə göstərənlər arasında yer almağı bacarıb. İlk keçiddən sonra onun nəticəsi iki cərimə saniyəsi ilə 95,12 olub. Y.Meqliç ikinci keçidi cərimənsiz başa vurub. Bununla da o, 21 iştirakçı arasında 11-ci yeri tutub. Y.Meqliç mübarizəni avqustun 10-da yarımfinal mərhələsində davam etdirəcək.

### Azərbaycan gimnastı Oleq finala vəsiqə qazanıb



"Rio-2016" Yay Olimpiya Oyunlarında idman gimnastikasında kişilərin çoxnövçülük üzrə təsnifat yarışlarında ölkəmizi Oleq Stepko və Petro Paxnyuk təmsil edirlər. Rio Olimpic Arenada təşkil olunan bu mərhələdə Azərbaycan ilə yanaşı, Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, Norveç, Yeni Zelandiya və Almaniyadan 31 atlet növbəti mərhələyə vəsiqə uğrunda yarışıb. O.Stepko 6 hərəkətin cəmində 86.208 xal, P.Paxnyuk isə 84.215 xal toplayaraq finalda iştirak etmək hüququ qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 452 Nüsxə 4650 |